**Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılmasına dair 2017-ci ildə həyata keçirilən fəaliyyət haqqında**

# MƏLUMAT

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 652 nömrəli Fərmanı ilə "Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması Qaydası" təsdiq edilmişdir. Qaydaya əsasən aşağıda qeyd olunan dövlət orqanları qeyri-hökumət təşkilatlarına qrantların verilməsini Şura ilə razılaşdırmalıdır:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi
3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
4. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
5. Azərbaycan Respublikasının Təhsil Nazirliyi
6. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

7 Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

8. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
9. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası

Qaydaya əsasən dövlət orqanlarının qeyri-hökumət təşkilatlarına qrantların verilməsi Şura ilə iki mərhələ üzrə razılaşdırılır:

**1-ci mərhələ üzrə:** Müsabiqələrə və qrant vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzulara dair Şuraya təqdim edilən məlumatlar;

**2-ci mərhələ üzrə:** Müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatları barədə məlumatların Şuraya təqdim edilməsi.

2017-ci ildə 1-ci mərhələ üzrə-müsabiqələrə və qrant vasitəsilə maliyyələşdirilməsi nəzərdə tutulan mövzulara dair Şuraya təqdim edilən məlumatların razılaşdırılması ilə bağlı aşağıda qeyd olunan dövlət orqanları müvafiq məlumatları Şuraya təqdim etmişlər:

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən 28 mövzu üzrə müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur. Şura Nazirlik tərəfindən təqdim olunmuş mövzular üzrə müsabiqələrin keçirilməsinə müsbət rəy vermişdir.
2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən 9 mövzu üzrə müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur. Şura Nazirlik tərəfindən təqdim olunmuş mövzular üzrə müsabiqələrin keçirilməsinə müsbət rəy vermişdir.
3. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən 2 mövzu üzrə müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur. Şura Komissiya tərəfindən təqdim olunmuş mövzular üzrə müsabiqələrin keçirilməsinə müsbət rəy vermişdir.
4. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 10 mövzu üzrə müsabiqənin keçirilməsinə dair məlumat təqdim olunmuşdur. Şura Nazirlik tərəfindən təqdim olunmuş mövzular üzrə müsabiqələrin keçirilməsinə müsbət rəy vermişdir.

2017-ci ildə 2-ci mərhələ üzrə - müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatları barədə məlumatların Şura ilə razılaşdırılması məqsədilə aşağıda qeyd olunan dövlət orqanları müvafiq məlumatları Şuraya təqdim etmişlər:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 59 layihə təqdim olunmuşdur. Təqdim olunmuş layihələrdən 10-na Şura tərəfindən müsbət rəy verilmişdir.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən 23 layihə təqdim olunmuşdur. Təqdim olunmuş layihələrdən 13-nə Şura tərəfindən müsbət rəy verilmişdir.

3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən 4 layihə təqdim olunmuşdur. Təqdim olunmuş layihələrdən 1-nə Şura tərəfindən müsbət rəy verilmişdir.

4. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən 3 layihə təqdim olunmuşdur. Təqdim olunmuş layihələrə Şura tərəfindən müsbət rəy verilmişdir.

2017-ci ildə Şura tərəfindən "Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması Qaydası"nın tətbiqi ilə əlaqədar bu sahədə fəaliyyəti asanlaşdırmaq məqsədilə elektron proqram təminatı hazırlanmış və Şuranın elektron xidmətlər portalı olan e-qht.az saytının Şura ilə layihələrin razılaşdırılması alt bölməsində yerləşdirilmişdir. Şura tərəfindən 30 iyun 2017-ci il tarixdə 9 dövlət orqanının nümayəndələrinin iştirakı ilə elektron proqram təminatından istifadə ilə bağlı təqdimat keçirilmiş və hər bir dövlət orqanına elektron proqram təminatına daxil olmaq üçün fərdi kod və şifrə təqdim olunmuşdur.